**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**
**və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında**
**birgə əməkdaşlığa dair**
# ANLAŞMA MEMORANDUMU

Bundan sonra birlikdə «tərəflər» adlandırılacaq
Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra «Nazirlik») və
Azərbaycən Qızıl Aypara Cəmiyyəti (bundan sonra «Cəmiyyət»).

Respublika əhalisinin sağlamlığının mühafizəsi dövlət siyasətinin mühüm tərkib hissəsi kimi ölkədə fəaliyyət göstərən hökumət və qeyri hökumət, ictimai qurumlarının, insanların zavallı (tənha qocalar, əlillər, atılmış, ya da hər iki valideynini itirən uşaqlar) təbəqəsinə (bundan sonra zavallı adlandırılacaq) göstərdikləri humanitar yardımları və xüsusi qayğısı ilə, dövlətin ən etibarlı dayaqlarına çevrilməsini nəzərə alaraq,

«Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında», «Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafı»na dair Azərbaycan Respublikası qanunlarının həyata keçirilməsi istiqamətində, eyni zamanda Cəmiyyətin Respublikada həyata keçirdiyi «İcmaya əsaslanan səhiyyə- maarifi işinin təşkili», «Könüllü təmənnasız qan donorluğunun inkişafı», «QİÇS/Vərəm xəstəliyi ilə mübarizə», «İcmaya əsaslanan İlk Yardım» proqramları çərçivəsində birgə əməkdaşlıq etmək məqsədi ilə aşağıdakılar barədə razılığa gəldilər:

## 1. QARŞIYA QOYULAN VƏZİFƏLƏR:

**1.1** Respublikada xəstələnmə və ölüm hallarının azaldılmasına dair tədbirlər təşkil etmək;
**1.2** Respublika əhalisinin sağlamlığına mənfi təsir göstərən amillərin, təhlükəli olan xəstəliklərin qarşısının alınmasına dair əhali arasında səhiyyə maarifi işini təşkil etmək;
**1.3** Respublikada narkomaniya, alkoqolizm, QİÇS, vərəm və digər xəstəliklərin qarşısını almaq məqsədilə müvafiq təbliğat yönümlü tədbirlər həyata keçirmək;
**1.4** Respublikada qana ehtiyacı olan xəstələri təhlükəsiz qan və onun komponentləri ilə təmin etmək;
**1.5** Fövqəladə hallara və təbii fəlakətlərə hazır olmaq məqsədi ilə könüllü təmənnasız qan donorluğunu inkişaf etdirmək üçün lazımi tədbirləri həyata keçirmək;
**1.6** Respublikada Qızıl Xaç/Qızıl Aypara emblemlərinin düzgün istifadə olunması haqqında kompaniyalar təşkil etmək;
**1.7** Respublika əhalisinin zavallı təbəqəsindən olan insanlara təmənnasız tibbi xidmət və psixo-sosial qayğı sahəsində olan fəaliyyətlərini mütəmadi olaraq təşkil etmək;
**1.8** Yuxarıda qeyd olunan fəaliyyətlərin daha aydın şəkildə əhaliyə çatdırılması üçün, hər iki tərəfin iştirakı ilə birgə informasiya materiallarının hazırlanmasını təşkil etmək;
**1.9** Memorandumun şərtlərindən irəli gələn və qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün müvafiq işçi qrupları çərçivəsində mütəmadi görüşlər təşkil etmək.

08.06.2012

## 2. Nazirliyin öhdəlikləri:

**2.1** Respublika əhalisinin sağlamlığının qorunması, o cümlədən, xəstəlik və epidemiyaların qarşısının alınması ilə əlaqədar, içtimai səhiyyə və tibbi xidmətlərin aparılmasını əlaqələndirmək;

**2.2** İçtimai səhiyyə və tibbi xidmətlərin aparılmasına dair respublikada təşkil olunan tədbirlərdə Cəmiyyətin «Sağlamlıq və qayğı» şöbəsinin nümayəndələrinin iştirakına şərait yaratmaq;

**2.3** Cəmiyyətdə fəaliyyət göstərən patronaj tibb bacıları, tibb qardaşları və sağlamlıq işçiləri üçün dövlət səhiyyə müəssisələrində mütəxəssislərin iştirakı ilə müvafiq kursların (təkmilləşdirmə) təşkil olunmasına şərait yaratmaq;

**2.4** Cəmiyyətin fəaliyyətinə qoşulan yeni patronaj tibb bacıları və tibb qardaşları üçün hazırlıq kurslarının dövlət səhiyyə müəssisələrində keçirilməsinə şərait yaratmaq və kurslarda həkim-mütəxəssislərin iştirakını təmin etmək;

**2.5** İçtimai səhiyyə sahəsində fəaliyyət göstərən təlimatçılar və tibb bacıları üçün nəzərdə tutulan təlim vəsaitlərinin hazırlanmasında iştirak etmək;

**2.6** Cəmiyyət tərəfindən qan xidməti müəssisələri ilə birgə təşkil olunan qanvermə aksiyaları zamanı müvafiq qaydalara uyğun olaraq könüllü qan vermək istəyən şəxslərin müayinəsini , qanın tədarük və nəql edilməsini, yoxlanılmasını, saxlanılmasını təmin etmək;

**2.7** Respublikada təşkil olunan kütləvi qanvermə aksiyalarında Cəmiyyətin nümayəndələrinin iştirakını təmin etmək;

**2.8** Qan donorlarının vahid registrinin yaradılmasını təmin etmək;

**Bununla əlaqədar olaraq:**

**2.8.1** könüllü təmənnasız qan donorluğunun təbliği məqsədilə kütləvi informasiya vasitələrində çıxışların aparılmasını təmin etmək;

**2.8.2** qan donorluğu haqqında elmi-kütləvi ədəbiyyatın nəşrini təmin etmək;

**2.9** Dövlət səhiyyə müəssisələrində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ilk təşkilatlarının fəaliyyətinə şərait yaratmaq və üzvlük haqlarının toplanmasına müvafiq köməklik göstərmək;

**2.10** İldə bir dəfədən az olmayaraq tərəflərin birgə gördüyü işlər barədə Nazirlikdə və ya Cəmiyyətdə mətbuat konfransı təşkil etmək;

### 3. Cəmiyyətin öhdəlikləri:

**3.1** Cəmiyyət xəstəlik və epidemiyaların qarşısının alınması ilə bağlı Nazirlik tərəfindən aparılan Milli Səhiyyə Proqramlarında (QİÇS, vərəm, immunlaşdırma, quş qripi və s.), əhalinin səfərbər olunmasına dair fəaliyyətlərini Nazirliklə əlaqələndirmək;

**3.2** Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Digər Milli Cəmiyyətlərin səhiyyə sahəsində apardıqları fəaliyyətlər barəsində Nazirliyə məlumat vermək;

**3.3** Cəmiyyətin Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər Milli Cəmiyyətlərlə İkitərəfli səhiyyə layihələri çərçivəsində əldə edilən əyani vəsaitləri, tibbi dərman-sarğı ləvazimatlarını, tibbi avadanlıqlarını Nazirlik vasitəsilə müvafiq ünvanlara çatdırmaq;

**3.4** Cəmiyyət tərəfindən səhiyyə sahəsində hazırlanan məlumat xarakterli materialların hazırlanmasını Nazirliyin müvafiq şöbələri ilə əlaqələndirmək;

**3.5** Respublika əhalisinin zavallı təbəqəsindən olan insanlara tibbi xidmət və psixo-sosial qayğını göstərmək məqsədilə Nazirliyin müvafiq şöbə, tibb müəssisə və mütəxəssislərin iştirakına nail olmaq ;

**3.6** Respublika əhalisinin zavallı təbəqəsindən olan insanlara tibbi xidmət və psixo-sosial qayğını göstərmək məqsədilə Cəmiyyətin müvafiq qurumlarını cəlb etmək;

**3.7** Fövqəladə hallar və təbii fəlakətlər zamanı əhaliyə səhiyyə (içtimai səhiyyə, psixoloji) xidmətləri sahəsində zəruri köməkliyin göstərilməsini Nazirliklə əlaqələndirmək;

**3.8** Tənha kimsəsizlərə, xroniki xəstələrə, evdə qulluğa və eyni zamanda xüsusi qayğıya ehtiyacı olan insanlara tibbi xidmət və psixo-sosial qayğı göstərmək məqsədilə Cəmiyyətdə fəaliyyət göstərən patronaj tibb bacıları və könüllü sağlamlıq işçiləri üçün təlimlərin təşkil olunmasında Nazirliyin müvafiq mütəxəssislərinin iştirakını təmin etmək;

**3.8** Respublikanın səhiyyə müəssisələrində Qızıl Xaç/Qızıl Aypara emblemlərinin düzgün istifadə olunması haqqında kampaniyaları təşkil etmək;

**3.10** Azərbaycan Respublikası ərazisində məskunlaşmış məcburi köçkün və qaçqınlara tibbi yardımın göstərilməsi, psixo-sosial reabilitasiyaya aid proqramların həyata keçirilməsi sahəsində Nazirlik və digər hökumət, qeyri-hökümət təşkilatları ilə əməkdaşlıq etmək;

**3.11** Fövqəladə hallar və təbii fəlakətlər zamanı qan və qan komponentlərinə kəskin ehtiyac yarandıqda müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə kütləvi qan donorluğunun təşkilində iştirak etmək ;

**3.12** Könüllü təmənnasız qan donorluğuna əhalini cəlb etmək məqsədilə qan donorluğuna aid təlim, qanvermə aksiyaları, könüllü təmənnasız qan donorlar şəbəkəsinin yaradılması, informasiya materiallarının hazırlanması, donorların həvəsləndirilməsi kimi müxtəlif tədbirləri təşkil etmək;

**3.13**14 İyun – Ümumdünya Qan Donor Günündə mütəmadi könüllü, təmənnasız qan donorlarının həvəsləndirilməsi məqsədilə müvafiq mükafatlarla (medal, nişan, fəxri fərmanlar ) təltif etmək;

### 4. Qüvvədə olma müddəti

Bu Memorandum imzalanan gündən qüvvəyə minir.

### 5. Əməkdaşlıq

Gələcəkdə bu Memoranduma tərəflərin razılığı ilə digər şəxslər də qoşula bilər.

Tərəflər bu Memorandumun quvvədə olduğu müddətdə onun icrasından ortaya çıxan məsələləri birgə həll edəcəklər.

Bu Memorandum Bakı şəhərində 08 iyun 2011-ci il tarixində iki nüsxədə imzalanmışdır.

## TƏRƏFLƏR:

**Oqtay Şirəliyev**
**Azərbaycan Respublikasının Səhiyyə Naziri**

**Novruzəli Aslanov**
**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti**